**Azərbaycan Respublikasının Vəkillər**

**Kollegiyasının İdarə Heyətinin sədri**

**cənab Anar Bağırova**

**Hörmətli Anar müəllim!**

Rəhbərlik etdiyiniz Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının son dövrlərdə göstərdiyi fəaliyyət, vəkillik institutunun inkişafı, peşəkar və savadlı hüquqşünasların yetişdirilməsi istiqamətində atılan addımlar cəmiyyət tərəfindən böyük rəğbətlə qarşılanır.

Xüsusilə bölgələrdə vəkillik fəaliyyətinin gücləndirilməsi, vətəndaşların hüquqlarının daha operativ və peşəkar şəkildə müdafiə olunması istiqamətində görülən işlər təqdirəlayiqdir. Bu baxımdan Azərbaycan Respublikasının Vəkillər Kollegiyası Lənkəran Regional Bölməsinin fəaliyyəti xüsusi qeyd olunmalıdır.

Lənkəran bölgəsində tanınmış hüquqşünas, vəkil Feyruz Əmanullayevin fəaliyyəti, vətəndaşların hüquqlarının qorunmasında göstərdiyi prinsipial mövqe və yüksək peşəkarlıq bölgə ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Onun timsalında bölgələrdə yetişən savadlı və məsuliyyətli vəkillər ölkəmizdə hüquqi dövlət prinsiplərinin möhkəmlənməsinə mühüm töhfə verirlər.

Sizin rəhbərliyiniz altında vəkillik institutunun nüfuzu daha da artır, ədalət mühakiməsinin şəffaflığı və vətəndaşların hüquqlarının müdafiəsi istiqamətində mühüm nailiyyətlər əldə olunur.

Sizə möhkəm cansağlığı, fəaliyyətinizdə davamlı uğurlar arzulayır, hüquq sistemimizin inkişafı naminə göstərdiyiniz xidmətlərə görə təşəkkürümü bildirirəm.

**Hörməttlə,**

**Bəxtiyar Hüseynov,**

**Prezident mükafatçısı,Əmək veteranı.Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü.**

**050 389 48 90**

**Lənkəran**

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 1229
«11» 03 2026 il